# 18-ci Bakı Yapon Dili Natiqlik Müsabiqəsinin nəticələri

28 sentyabr tarixində Bakı Dövlət Universitetinin və Yaponiya Səfirliyinin təşkilatçılığı, Azərbaycanda fəaliyyət göstərən yapon şirkətlərinin dəstəyi ilə Bakı Dövlət Universitetində 18-ci Bakı Yapon Dili Natiqlik Müsabiqəsi keçirilmişdir. Müsabiqədə “məktəbli” bölümü üzrə 4 nəfər, “tələbə” bölümü üzrə isə 14 nəfər iştirak etmiş və öz seçdikəri mövzu ətrafında yapon dilində nitq söyləmişlər. 1-ci yerin sahibi “Ana sevgisi” mövzusunda inşa ilə Azərbaycan Dillər Universitetinin 3-cü kurs tələbəsi Səidə Məmmədli seçilmişdir. Ənənəvi olaraq 1-ci yerin sahibi oktyabr ayında Rusiyanın paytaxtı Moskva şəhərində keçiriləcək Moskva Beynəlxalq Yapon Dili Natiqlik Müsabiqəsində Azərbaycanı təmsil edəcəkdir.

＜**Müsabiqənin nəticələri**＞

**1-ci yer**： Səidə Məmmədli “Ana sevgisi” （Azərbaycan Dillər Universiteti 3-cü kurs）

**2-ci yer**： Günel İsmayılova “Yaşlılara hörmət” （Azərbaycan Dillər Universiteti 3-cü kurs）

**3-cü yer**： Fənarə Alıyeva “Gəlin rənglər haqqında danışaq” (Bakı Dövlət Universiteti 3-cü kurs）

**4-cü yer**： Nailə İsmayılova “Mənim evim” (Azərbaycan Dillər Universiteti 1-ci kurs）

**5-ci yer**： Nəzrin Cuvarlinskaya “Mənim yay təcrübəm” (Bakı Dövlət Universiteti 2-ci kurs）

**Münsiflərin Xüsusi mükafatı:** Nüşabə Abduyeva “Sev, istə və çalış” (Azərbaycan Dillər Universiteti 2-ci kurs）

Soldakı şəkil: İştirakçılarla birgə ümumi şəkil

Sağdakı şəkil: 1-ci yerin qalibi Məmmədli Səidə Diplomla təltif olunarkən




